## Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısının təsdiq edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Azərbaycan Respublikasında antiinflyasiya tədbirlərinin gücləndirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 31 may tarixli 242 nömrəli Fərmanının 4.2. bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısı təsdiq edilsin (əlavə olunur).
2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A. RASİZADƏ**

Bakı şəhəri, 28 sentyabr 2005-ci il
178

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2005-ci il 28 sentyabr tarixli 178 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

### Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin)

### S İ Y A H I S I

| Sıra -si | Malların (işlərin, xidmətlərin) adı |
|---|---|
| 1 | 2 |
| 1. | Elektrik enerjisi |
| *2.* | *Xam neft, Aİ-92 markalı avtomobil benzini, dizel yanacağı və bitum*[1] |
| *2-1.* | *Naftalan nefti*[2] |
| 3. | *Təbii qazın boru kəmərləri ilə nəqli, topdan və pərakəndə satışı*[3] |
| ~~4.~~ | ~~Maye qaz(topdansatış)~~[4] |
| 5. | Dövlət mənzil fondunun yaşayış sahələrindən sosial kirayə və ya kirayə müqavilələri üzrə istifadəyə (kirayəyə), həmin sahələrin saxlanması və təmirinə görə haqlar[5] |
| 6. | Daşınmaz əmlakın, *o cümlədən torpaq* sahələrinin kadastrı, qeydiyyatı və texniki inventarlaşdırılması ilə bağlı xidmətlər, ("Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş xidmətlər istisna olmaqla) dövlət və bələdiyyə torpaqlarının icarə haqqı, satış qiymətləri, sahələr üzrə məlumatların verilməsi xidmətləri[6] |
| *6-1.*[7] | *Bələdiyyələrə daşınmaz əmlakın dövlət reyestrinin məlumatlarının verilməsi xidmətləri* |
| 7. | İçməli və texniki su |
| 8. | İstilik enerjisi |
| 9. | *İstilik təchizatı*[8] |
| 10. | Neft və neft məhsullarının magistral boru kəmərləri ilə nəqli xidmətləri |
| ~~11.~~ | ~~Təbii qazın boru kəmərləri ilə nəqli, saxlanması və paylanması xidmətləri~~[9] |
| 12. | Bütün növ nəqliyyat xidmətləri (magistral və yerli dəmir yolu xətlərinin, yol qurğu və tikililərinin istismarı, hərəkəti, idarəetmə, ~~*hərəkət və*~~ *dəniz üzgüçülüyünün* təhlükəsizliyi fəaliyyəti, dəmir yolu stansiyaları və sərnişin vağzalları~~, *respublika ərazisində yük və sərnişin daşıma*~~ xidmətləri; aeroport xidmətləri, aeroportların uçuş zolaqları və qurğuların istismarı, hava gəmilərinə aviasiya və aeronaviqasiya xidmətləri, aviasiya təhlükəsizliyinin təmin edilməsi xidmətləri, uçuşların təhlükəsizliyini təmin etmək məqsədilə hava gəmilərinə göstərilən texniki xidmətlər, respublika ərazisində yük və sərnişin daşıma xidmətləri; su limanı sahəsində xidmətlər (liman qurğularının istismarı, *və yükaşırma*), Xəzər dənizində dövlətə məxsus gəmi ilə respublika ərazisində yük və sərnişin daşıma; metro nəqliyyatında yolların, tunellərin v ə stansiyaların istismarı, hərəkəti, idarəetmə və hərəkət təhlükəsizliyi, sərnişin daşıma fəaliyyəti; şəhərlərarası və şəhərdaxili ümumi istifadədə olan nəqliyyatla sərnişin daşıma və s.)[10] |
| *12-1.*[11] | *Dəmir yolu və dəniz nəqliyyatı ilə tranzit yüklərin daşınması, tranzit yüklərlə bağlı liman qurğularının istismarı, dəniz terminalları tərəfindən yükaşırma və dəniz limanında göstərilən digər xidmətlər, həmçinin bu xidmətlər üzrə nəqliyyat-ekspedisiya xidmətləri* |

| | |
|---|---|
| 13. | Rabitə sahəsində xidmətlər (ümumi istifadədə olan elektrik, poçt və teleqraf rabitəsi xidmətləri, qəbuledici-verici radio və televiziya stansiyalarının, yüksəktezlikli qurğuların istismarı və nəzarəti, beynəlxalq, şəhərlərarası, şəhərdaxili və rayon telefon rabitəsi və s.) |
| 14. | Dövlətə məxsus kommunal təsərrüfatı sahəsində əsas xidmətlər (~~mənzil,~~ məhəllə-daxili fərdi qarajdan və qeyri-yaşayış sahələrindən istifadə haqqı, yaşayış evlərində liftdən istifadə edilməsi, məişət tullantılarının daşınması və zərərsizləşdirilməsi, çirkab suların axıdılması və s.)[12] |
| 15.[13] | Dövlətə məxsus təhsil sahəsində xidmətlər (*orta ixtisas təhsili müəssisələrinə, ali təhsil müəssisələrində ali təhsilin bakalavriat və magistratura (əsas (baza ali) tibb təhsili və rezidentura) səviyyələrinə, Azərbaycan Milli Elmlər Akademiyasında magistratura səviyyəsinə mərkəzləşdirilmiş qaydada tələbə qəbulu ilə bağlı imtahanların keçirilməsi,* ödənişli əsaslarla kadr hazırlığı (ali təhsil pilləsinin bakalavriat, magistratura səviyyələri, ikinci təhsil), orta ixtisas və *peşə* təhsili və s.)[14] |
| 16. | Dövlətə məxsus ixtisaslaşdırılmış müəssisələrdə tibbi yardım, müayinə, müalicə və sanitar sahələrdə xidmətlər |
| 17. | Təbii sərvətlər (hidrometeorologiya və meşə təsərrüfatı sahələrindən başqa) sahəsində əsas xidmətlər (geoloji və ekoloji ekspertizanın aparılması, sənədlərin *("Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş sənədlər istisna olmaqla)* və informasiyaların verilməsi)[15] |
| 18. | Hidrometeorologiya xidmətləri |
| ~~19.~~ | ~~Standartlaşdırma, sertifikatlaşdırma və patentləşdirmə xidmətləri~~[16] |
| 20. | Karantin tədbirlərinin həyata keçirilməsi xidmətləri |
| 21. | Baytarlıq sahəsində əsas xidmətlər ("Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş xidmətlər istisna olmaqla)[17] |
| 22. | Dövlətə məxsus laboratoriya xidmətləri (malın mənşə ölkəsinin müəyyən edilməsi üzrə ekspertiza və Avropa İttifaqı ölkələrinə ixrac olunan yeyinti məhsullarının keyfiyyətinin və təhlükəsizliyinin qiymətləndirilməsi üzrə laboratoriya və ekspertiza xidmətləri, nəzarət-toksikologiya)[18] |
| 23. | Meşə təsərrüfatı sahəsində əsas xidmətlər (meşə sahələrinin icarə qiyməti, əsas meşə və kol cinslərinin kötüküstü buraxılış nırxları) |
| 24. | Tikinti, memarlıq və şəhərsalma sahəsində xidmətlər ("Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş xidmətlər istisna olmaqla)[19] |
| 25. | Zərərli maddələrin daşınması və zərərsizləşdirilməsi xidmətləri |
| 26. | Meliorasiya və su təsərrüfatı sahəsində əsas xidmətlər (baş su təmizləyici qurğu-ların, magistral borular, su kəməri şəbəkəsi və onların üzərindəki təzyiq və tənzimləyici qurğuların, su anbarlan, kanallar, kollektorlar və bəndlərin istismarı və s.) |
| 27. | Dərman vasitələrinin ekspertiza xidmətləri, *o cümlədən dərman vasitələrinin farmakonəzarət sənədlərinin ekspertizası (dərman vasitəsi dövlət qeydiyyatına alındıqdan sonra təqdim edilən farmakonəzarət sənədləri ilə bağlı ekspertiza keçirildikdə)*, dövlət qeydiyyatına alınmış dərman vasitələri[20] |
| 28. | Dövlət yollarının salınması və saxlanılması xidmətləri |
| 29. | Torpaqlara bioloji, biokimyəvi və kimyalaşdırma xidmətləri |
| 30. | Ovçuluq sahəsində (su və meşə heyvanlarının ovlanması~~, ovçuluq biletinin qiyməti~~) xidmətlər[21] |
| 31. | Bankların və digər kredit təşkilatlarının DGK-nın reyestrinə salınması |
| 32. | DYPİ-nin xidmətləri ("Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş xidmətlər istisna olmaqla)[22] |
| 33. | Xüsusi rabitə xidmətləri |
| 34. | Dövlətə məxsus protez-ortopedik bərpa mərkəzinin xidmətləri |
| 35. | Dövlətə məxsus daşınmaz və daşınan əmlakın qiymətlərinin müəyyən edilməsi |
| ~~*36.*~~ | ~~*Küçə reklamlarının yerləşdirilməsi, yayımı və reklam tarifi*~~[23] |
| 37. | Gəmilərə texniki baxış xidmətləri ("Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş xidmətlər istisna olmaqla)[24] |
| 38. | Mərkəzi və yerli icra hakimiyyəti orqanlarına və bələdiyyələrə məxsus olan idman obyektlərində keçirilən idman yarışlarına giriş tarifləri, vətəndaşların belə obyektlərdən istifadə etmələri üçün abonementlərin qiymətləri, büdcə vəsaitləri hesabına maliyyələşən mərkəzi təşkilatların göstərdikləri xidmətlər[25] |
| ~~39.~~[26] | ~~*Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Dəniz Agentliyi xidmətləri ("Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş xidmətlər istisna olmaqla)*~~[27] |

| | |
|---|---|
| *40.* | *Yaşayış binalarının, o cümlədən mənzillərin elektrik, qaz və su xətlərinə qoşulma xidmətləri*[28] |
| *41.* | *Yoxlama və digər nəzarət tədbirləri çərçivəsində yoxlayıcı orqanlar tərəfindən fiziki və hüquqi şəxslərdən malların (məhsulların) götürülməsi, daşınması, saxlanılması, zərərsizləşdirilməsi və ya məhv edilməsi ilə bağlı xidmətlər*[29] |
| *42.* | *Dövlət qulluğu üzrə test imtahanlarında iştirak etmək*[30] |
| *43.* | *Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilən və bu ərazidən aparılan malların, gömrük orqanlarının sərəncamında olan anbarlar istisna olmaqla, müvəqqəti saxlanc və gömrük anbarlarında saxlancı ilə bağlı xidmətlər*[31] |
| *44.* | *Əmlak hüquqlarını kollektiv əsasda idarə edən təşkilatların Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinə ödədiyi illik haqq*[32] |
| *45.* | *Beynəlxalq standart eyniləşdirmə nömrələrinin verilməsinə görə haqq* |
| *46.* | *Nəzarət markasının alınmasına görə haqq* |
| *47.* | *Xarici dövlətlərin hüquqi və fiziki şəxslərinin Azərbaycan Respublikasının hüdudlarından kənarda Azərbaycan folkloru nümunələrindən kommersiya məqsədi ilə istifadəsinə görə haqq* |
| *47-1.* | *Dövlət varidatı elan olunmuş əsərlərdən istifadəyə görə hesablanan qonorar*[33] |
| *48.*[34] | *Açıq məkanda reklam yayımı* |
| *49.*[35] | *Dövlət ilkin kəmiyyət vahidləri etalonlarından kəmiyyət vahidlərinin ötürülməsinə, uyğunluğu qiymətləndirən qurumların akkreditasiyasına, Azərbaycan Respublikasının "Patent haqqında" və "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" qanunlarında nəzərdə tutulan xidmətlər ("Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş xidmətlər istisna olmaqla)* |

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

-


1. 6 yanvar 2007-ci il tarixli **1** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 1, maddə 45**)
2. 19 mart 2007-ci il tarixli 57 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 3, maddə 312**)
3. 08 oktyabr 2007-ci il tarixli 161 nömrəli Azərbaycan Respublikasının Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 10, maddə 1021**)
4. 7 fevral 2008-ci il tarixli 35 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 2, maddə 116**)
5. 10 iyun 2009-cu il tarixli **90** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 06, maddə 491)**
6. 30 sentyabr 2009-cu il tarixli **157** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 10, maddə 846**)
7. 1 dekabr 2009-cu il tarixli **186** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 12, maddə 1061)**
8. 29 mart 2010-cu il tarixli **53** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 3, maddə 264**)
9. 14 aprel 2010-cu il tarixli **6 8** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 4, maddə 359**)
10. 16 iyul 2010-cu il tarixli **136** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 07, maddə 702**)
11. 23 dekabr 2010-cu il tarixli **241** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 12, maddə 1122**)
12. 31 mart 2014-cü il tarixli **90** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 3, maddə 321**)
13. 23 oktyabr 2014-cü il tarixli **352** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 28 oktyabr 2014-cü il, 234, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 10, maddə 1322**)
14. 14 aprel 2015-ci il tarixli **107** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 24 aprel 2015-ci il, 86, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 4, maddə 474**)
15. 28 yanvar 2016-cı il tarixli **23** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 7 fevral 2016-cı il, 28;**

Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 02, II kitab, maddə 366)

16. 25 fevral 2016-cı il tarixli **89** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 31 mart 2016-cı il, № 66, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 03, maddə 610)**

17. 11 may 2016-cı il tarixli **191** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 15 may 2016-cı il, № 104, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 5, maddə 951 )**

18. 2 avqust 2016-cı il tarixli **291** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 6 avqust 2016-cı il, № 169, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 8, maddə 1431)**

19. 1 sentyabr 2016-cı il tarixli **327** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 4 sentyabr 2016-cı il, № 194, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 9, maddə 1555 )**

20. 18 noyabr 2016-cı il tarixli **467** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 22 noyabr 2016-cı il, № 258, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 11, maddə 1955 )**

21. 26 yanvar 2017-ci il tarixli **18** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 28 yanvar 2017-ci il, № 19, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 1, maddə 131)**

22. 28 mart 2017-ci il tarixli **112** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 30 mart 2017-ci il, № 64, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 3, maddə 510)**

23. 14 avqust 2017-ci il tarixli **329** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 15 avqust 2017-ci il, № 176, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 8, maddə 1617 )**

24. 15 dekabr 2017-ci il tarixli **556** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 16 dekabr 2017-ci il, № 278, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 12, II kitab, maddə 2504)**

25. 27 iyun 2018-ci il tarixli **280** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 29 iyun 2018-ci il, № 141, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 6, maddə 1377)**

26. 13 iyul 2018-ci il tarixli **296** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 17 iyul 2018-ci il, № 156, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 7, II kitab, maddə 1630)**

27. 27 avqust 2018-ci il tarixli **358** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 29 avqust 2018-ci il, № 191, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 8, maddə 1809)**

28. 8 noyabr 2018-ci il tarixli **478** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 13 noyabr 2018-ci il, № 255, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 11, maddə 2428 )**

29. 18 dekabr 2018-ci il tarixli **539** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 21 dekabr 2018-ci il, № 288, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 12, II kitab, maddə 2735)**

30. 19 dekabr 2018-ci il tarixli **542** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 22 dekabr 2018-ci il, № 289, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 12, II kitab, maddə 2738)**

31. 21 yanvar 2019-cu il tarixli **13** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 24 yanvar 2019-cu il, № 18, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 01, maddə 157)**

32. 16 sentyabr 2019-cu il tarixli **410** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 18 sentyabr 2019-cu il, № 205, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 9, maddə 1564)**

33. 4 yanvar 2021-ci il tarixli **1** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 6 yanvar 2021-ci il, № 1, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 1, maddə 85)**

34. 26 aprel 2021-ci il tarixli **114** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 29 aprel 2021-ci il, № 89, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 4, maddə 417)**

35. 2 sentyabr 2021-ci il tarixli **249** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 11 sentyabr 2021-ci il, № 193, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 9, maddə 1049 )**

36. 10 sentyabr 2021-ci il tarixli **254** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 11 sentyabr 2021-ci il, № 193, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 9, maddə 1054)**

37. 4 aprel 2022-ci il tarixli **125** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 8 aprel 2022-ci il, № 71, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, № 4, maddə 375)**

38. 15 aprel 2022-ci il tarixli **161** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 19 aprel 2022-ci il, № 80, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, № 4, maddə 408)**

## QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

-

---

[1] 31 mart 2014-cü il tarixli **90** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 3, maddə 321**) ilə "Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısı"nın 2-ci sütununun 2-ci bəndinə "**məhsullar**" sözündən sonra "**(idxal olunan ekoloji norması avro-5 tələblərinə uyğun, oktan ədədi 95 və daha yüksək olan avtomobil benzinləri istisna olmaqla)**" sözləri əlavə edilmişdir.

4 yanvar 2021-ci il tarixli **1** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 6 yanvar 2021-ci il, № 1, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 1, maddə 85)** ilə "Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısı"nın 2-ci hissəsi yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

| | |
|---|---|
| ~~2.~~ | ~~Xam neft və neftdən emal olunan əsas məhsullar (idxal olunan ekoloji norması avro-5 tələblərinə uyğun, oktan ədədi 95 və daha yüksək olan avtomobil benzinləri istisna olmaqla)~~ |

[2] 14 avqust 2017-ci il tarixli **329** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 15 avqust 2017-ci il, № 176, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 8, maddə 1617s )** ilə "Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısı"na yeni məzmunda 2-1-ci sətir əlavə edilmişdir.

[3] 16 sentyabr 2019-cu il tarixli **410** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 18 sentyabr 2019-cu il, 205, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 9, maddə 1564**) ilə "Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısı"nın 3-cü hissəsində "**Təbii qaz**" sözləri "**Təbii qazın boru kəmərləri ilə nəqli, topdan və pərakəndə satışı** " sözləri ilə əvəz edilmişdir.

[4] 6 yanvar 2007-ci il tarixli **1** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 1, maddə 45**) ilə 178 nömrəli qərarı ilə təsdiq edilmiş "Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısı"nın 4-cü bəndinə "**Maye qaz**" sözlərindən sonra "**(topdansatış)**" sözü əlavə edilmişdir.

[5] 14 aprel 2010-cu il tarixli **68** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 4, maddə 359**) ilə "Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısı"nın 5-ci bənd yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~5. Mənzil kirayəsi (dövlət fondu üzrə)~~

[6] 10 iyun 2009-cu il tarixli **90** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 06, maddə 491**) ilə Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısı»nın 6-cı bənddə «**kadastrı xidmətləri**» sözlərindən sonra **«(«Dövlət rüsumu haqqında» Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş xidmətlər istisna olmaqla)**» sözləri əlavə edilmişdir.

30 sentyabr 2009-cu il tarixli **157** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 10, maddə 846**) ilə təsdiq edilmiş "Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısı"nın 6-cı bəndində "**Daşınmaz əmlak və dövlət torpaqlarının kadastrı xidmətləri**" sözləri "**Daşınmaz əmlakın və torpaq sahələrinin kadastrı, qeydiyyatı və texniki inventarlaşdırılması ilə bağlı xidmətlər**" sözləri ilə əvəz edilmişdir.

26 aprel 2021-ci il tarixli **114** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 29 aprel 2021-ci il, 89, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 4, maddə 417**) ilə "Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısı"nın 6-cı hissəsində "**və torpaq**" sözləri "**, o cümlədən torpaq** " sözləri ilə əvəz edilmişdir.

[7] 27 iyun 2018-ci il tarixli **280** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 29 iyun 2018-ci il, 141, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 6, maddə 1377**) ilə "Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısı"na yeni məzmunda 6-1-ci hissə əlavə edilmişdir.

[8] 18 noyabr 2016-cı il tarixli **467** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 22 noyabr 2016-cı il, 258, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 11, maddə 1955**) ilə "Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısı"nın 9-cu hissəsində "**İsti su və istilik təchizatı xidmətləri**" sözləri "**İstilik təchizatı**" sözləri ilə əvəz edilmişdir.

[9] 16 sentyabr 2019-cu il tarixli **410** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 18 sentyabr 2019-cu il, 205, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 9, maddə 1564**) ilə "Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısı"nın 4-cü və 11-ci hissələri ləğv edilmişdir.

[10] 7 fevral 2008-ci il tarixli 35 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 2, maddə 116**) ilə «Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısı»nın 12-ci bəndində **«ictimai»** sözü «**ümumi istifadədə olan**» sözləri ilə əvəz edilmişdir.

23 oktyabr 2014-cü il tarixli **352** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 28 oktyabr 2014-cü il, 234**, **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 10, maddə 1322**) ilə "Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısı"nın 12-ci sətrində "**və hərəkət**" sözləri "**, hərəkət və dəniz üzgüçülüyünün** " sözləri ilə əvəz edilmişdir.

28 yanvar 2016-cı il tarixli **23** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 7 fevral 2016-cı il, 28; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 02, II kitab, maddə 366**) ilə "Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısı"nın 12-ci hissəsindən birinci halda **", respublika ərazisində yük və sərnişin daşıma** " sözləri çıxarılmışdır.

11 may 2016-cı il tarixli **191** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 15 may 2016-cı il, 104, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 5, maddə 951** ) ilə "Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısı"nın 12-ci hissəsindən **"hərəkət və"** sözləri çıxarılmışdır və həmin hissədə "**yükaşırma və hərəkət təhlükəsizliyi** " sözləri "**və yükaşırma**" sözləri ilə əvəz edilmişdir.

[11] 25 fevral 2016-cı il tarixli **89** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 31 mart 2016-cı il, 66, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 03, maddə 610**) ilə "Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısı"na yeni məzmunda 12-1-ci sətir əlavə edilmişdir.

23 oktyabr 2014-cü il tarixli **352** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 28 oktyabr 2014-cü il, 234**, **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 10, maddə 1322**) ilə "Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısı"nın 12-ci sətrində "**və hərəkət**" sözləri "**, hərəkət və dəniz üzgüçülüyünün** " sözləri ilə əvəz edilmişdir.

28 yanvar 2016-cı il tarixli **23** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 7 fevral 2016-cı il, 28; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 02, II kitab, maddə 366**) ilə "Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısı"nın 12-ci hissəsindən birinci halda **", respublika ərazisində yük və sərnişin daşıma** " sözləri çıxarılmışdır.

[12] 14 aprel 2010-cu il tarixli **68** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 4, maddə 359**) ilə "Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısı"nın 14-cü bənddən "**mənzil,**" sözü çıxarılmışdır.

[13] 29 mart 2010-cu il tarixli **53** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik**

**Toplusu, 2010-cu il,   3, maddə 264**) ilə 15-ci bəndində «**ali məktəblərin müxtəlif pillələrinə və orta təhsil bazasında orta ixtisas məktəblərinə**» sözləri «**ali təhsil pilləsinin müxtəlif səviyyələrinə və tam orta təhsil bazasında orta ixtisas müəssisələrinə** » sözləri ilə, «**ali bakalavr, magistratura**» sözləri «**ali təhsil pilləsinin bakalavriat, magistratura səviyyələri** » sözləri ilə, «**peşə təhsili**» sözləri «**ilk peşə-ixtisas təhsili**» sözləri ilə əvəz edilmişdir.

[14] 10 iyun 2009-cu il tarixli **90** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il,   06, maddə 491**) ilə Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısı»nın 15-ci bənddən «**, xarici ölkələrin ali təhsil müəssisələrinin diplomlarının tanınması** » sözləri çıxarılmışdır.

26 yanvar 2017-ci il tarixli **18** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 28 yanvar 2017-ci il,   19, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il,   1, maddə 131**) ilə 15-ci hissədə "**ali təhsil pilləsinin müxtəlif səviyyələrinə və tam orta təhsil bazasında orta ixtisas müəssisələrinə tələbə qəbulu zamanı abituriyentlərdən sənədlərin götürülməsi,**" sözləri "**orta ixtisas təhsili müəssisələrinə, ali təhsil müəssisələrində ali təhsilin bakalavriat və magistratura (tibb təhsili üzrə əsas təhsil və rezidentura) səviyyələrinə, Azərbaycan Milli Elmlər Akademiyasında magistratura səviyyəsinə mərkəzləşdirilmiş qaydada tələbə qəbulu ilə bağlı imtahanların keçirilməsi.**" sözləri ilə əvəz edilmişdir.

8 noyabr 2018-ci il tarixli **478** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 13 noyabr 2018-ci il,   255, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il,   11, maddə 2428** ) ilə "Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısı"nın 15-ci hissəsində "**tibb təhsili üzrə əsas təhsil** " sözləri "**əsas (baza ali) tibb təhsili** " sözləri ilə əvəz edilmişdir.

19 dekabr 2018-ci il tarixli **542** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 22 dekabr 2018-ci il,   289** , **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il,  12, II kitab, maddə 2738**) ilə "Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısı"nın 15-ci hissəsində "**ilk peşə-ixtisas**" sözləri "**peşə**" sözü ilə əvəz edilmişdir.

[15] 15 aprel 2022-ci il tarixli **161** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 19 aprel 2022-ci il,   80, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il,   4, maddə 408**) ilə "Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısı"nın 17-ci hissəyə "**sənədlərin**" sözündən sonra "**("Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş sənədlər istisna olmaqla**)" sözləri əlavə edilmişdir.

[16] 10 iyun 2009-cu il tarixli **90** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il,   06, maddə 491**) ilə Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısı»nın 19-cu bənd çıxarılmışdır.

[17] 10 iyun 2009-cu il tarixli **90** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il,   06, maddə 491**) ilə Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısı»nın 21-ci bənddə «**(qida və emal üçün nəzərdə tutulan heyvan mənşəli məhsulların və xammalın zəruri baytar-sanitar keyfiyyətinin təminatına nəzarət, heyvanların profilaktiki, epizootiya əleyhinə, sanitariya tədbirlərinin aparılması, əhalini insan və heyvanlar üçün ümumi olan xəstəliklərdən qorumaq tədbirləri və s.)**» sözləri «**(«Dövlət rüsumu haqqında» Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş xidmətlər istisna olmaqla)**» sözləri ilə əvəz edilmişdir.

[18] 23 dekabr 2010-cu il tarixli **241** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il,   12, maddə 1122**) ilə təsdiq edilmiş "Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısı"nın 22-ci bəndində "**mənşə sertifikatlarının verilməsi**" sözləri "**malın mənşə ölkəsinin müəyyən edilməsi üzrə ekspertiza və Avropa İttifaqı ölkələrinə ixrac olunan yeyinti məhsullarının keyfiyyətinin və təhlükəsizliyinin qiymətləndirilməsi üzrə laboratoriya və ekspertiza xidmətləri**" sözləri ilə əvəz edilmişdir.

[19] 10 iyun 2009-cu il tarixli **90** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il,   06, maddə 491**) ilə Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısı»nın 24-cü bənddə «**((dövlətə məxsus orqanlar tərəfindən göstərilən xidmətlər) (obyektin qiymətinin hesablanması, elmi-tədqiqat və layihə işləri, layihə-axtarış işləri, layihə-smeta sənədlərinin ekspertizası, tikintidə istifadə olunan bazis əmsalları, inşaat pasportlarının hazırlanması, poçt ünvanlarının verilməsi və s.))**» sözləri «**(«Dövlət rüsumu haqqında» Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş xidmətlər istisna olmaqla)** » sözləri ilə əvəz edilmişdir.

[20] 14 aprel 2015-ci il tarixli **107** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 24 aprel 2015-ci il,   86, 86**, **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il,   4, maddə 474**) ilə "Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısı"nın 27-ci sətri yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

| | |
|---|---|
| ~~27.~~ | ~~Dərman preparatlarının sınağının keçirilməsi xidmətləri~~ |

10 sentyabr 2021-ci il tarixli **254** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 11 sentyabr 2021-ci il,   193, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il,   9, maddə 1054**) ilə "Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısı"nın 27-ci hissəsinə "**ekspertiza xidmətləri**" sözlərindən sonra "**, o cümlədən dərman vasitələrinin farmakonəzarət sənədlərinin ekspertizası (dərman vasitəsi dövlət qeydiyyatına alındıqdan sonra təqdim edilən farmakonəzarət sənədləri ilə bağlı ekspertiza keçirildikdə)**" sözləri əlavə edilmişdir.

[21] 15 aprel 2022-ci il tarixli **161** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 19 aprel 2022-ci il,   80, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il,   4, maddə 408**) ilə "Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısı"nın 30-cu hissədən "**, ovçuluq biletinin qiyməti** " sözləri çıxarılmışdır.

[22] 10 iyun 2009-cu il tarixli **90** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il,   06, maddə 491**) ilə Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısı»nın 32-ci bəndin sonuna «**(«Dövlət rüsumu haqqında» Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş xidmətlər istisna olmaqla)** » sözləri əlavə edilmişdir.

[23] 10 iyun 2009-cu il tarixli **90** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il,   06, maddə 491**) ilə Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısı»nın 36-cı bənddən «**yerləşdirilməsi,** » sözü çıxarılmışdır.

1 sentyabr 2016-cı il tarixli **327** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Azərbaycan" qəzeti, 4 sentyabr 2016-cı il, 194 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 9, maddə 1555)** ilə "Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısı"nın 36-cı hissəsi ləğv edilmişdir.

[24] 10 iyun 2009-cu il tarixli **90** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 06, maddə 491)** ilə Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısı»nın 37-ci bəndin sonuna «**(«Dövlət rüsumu haqqında» Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş xidmətlər istisna olmaqla)** » sözləri əlavə edilmişdir.

**[25]** 1 dekabr 2009-cu il tarixli **186** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **()** ilə təsdiq edilmiş "Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısı"nın 38-ci bəndində "**Büdcə**" sözü "**Mərkəzi və yerli icra hakimiyyəti orqanlarına və bələdiyyələrə məxsus olan idman obyektlərində keçirilən idman yarışlarına giriş tarifləri, vətəndaşların belə obyektlərdən istifadə etmələri üçün abonementlərin qiymətləri, büdcə**" sözləri ilə əvəz edilmişdir.

**[26]** 4 aprel 2022-ci il tarixli **125** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 8 aprel 2022-ci il, 71 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 4, maddə 375)** ilə "Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısı"nın 39-cu hissəsi ləğv edilmişdir.

**[27]** 19 mart 2007-ci il tarixli **57** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 3, maddə 312**) ilə "Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısı"na **39-cu bənd** əlavə edilmişdir.

08 oktyabr 2007-ci il tarixli 161 nömrəli Azərbaycan Respublikasının Nazirlər Kabinetinin Qərarı ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 10, maddə 1021**) ilə 39-cu bəndindən "Nazirlər Kabineti yanında" sözləri çıxarılmışdır.

10 iyun 2009-cu il tarixli **90** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 06, maddə 491)** ilə Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısı»nın 39-cu bəndin sonuna «**(«Dövlət rüsumu haqqında» Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş xidmətlər istisna olmaqla)** » sözləri əlavə edilmişdir.

21 yanvar 2019-cu il tarixli **13** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 24 yanvar 2019-cu il, 18 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 01, maddə 157)** ilə "Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısı"nın 39-cu hissəsində "**Dövlət Dəniz Administrasiyasının**" sözləri "**Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Dəniz Agentliyi"** sözləri ilə əvəz edilmişdir.

**[28]** 16 iyul 2010-cu il tarixli **136** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 7, maddə 702**) ilə "Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısı"na 40-cı bənd əlavə edilmişdir.

**[29]** 2 avqust 2016-cı il tarixli **291** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Azərbaycan" qəzeti, 6 avqust 2016-cı il, 169, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 8, maddə 1431)** ilə "Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısı"na yeni məzmunda 41-ci hissə əlavə edilmişdir.

**[30]** 26 yanvar 2017-ci il tarixli **18** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 28 yanvar 2017-ci il, 19, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 1, maddə 131)** ilə yeni məzmunda 42-ci hissə əlavə edilmişdir.

**[31]** 28 mart 2017-ci il tarixli **112** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 30 mart 2017-ci il, 64, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 3, maddə 510)** ilə "Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısı"na yeni məzmunda 43-cü hissə əlavə edilmişdir.

**[32]** 15 dekabr 2017-ci il tarixli **556** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 16 dekabr 2017-ci il, 278, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 12, II kitab, maddə 2504)** ilə "Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısı"na yeni məzmunda 44-47-ci hissələr əlavə edilmişdir.

27 avqust 2018-ci il tarixli **358** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 29 avqust 2018-ci il, 191 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 8, maddə 1809)** ilə "Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısı"nın 44-cü hissəsində "**Müəllif Hüquqları**" sözləri "**Əqli Mülkiyyət**" sözləri ilə əvəz edilmişdir.

**[33]** 2 sentyabr 2021-ci il tarixli **249** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 11 sentyabr 2021-ci il, 193 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 9, maddə 1049 )** ilə "Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısı"na yeni məzmunda 47-1-ci hissə əlavə edilmişdir.

**[34]** 13 iyul 2018-ci il tarixli **296** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 17 iyul 2018-ci il, 156 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 7, II kitab, maddə 1630)** ilə "Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısı"na yeni məzmunda 48-ci hissə əlavə edilmişdir.

**[35]** 18 dekabr 2018-ci il tarixli **539** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 21 dekabr 2018-ci il, 288** , **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 12, II kitab, maddə 2735)** ilə "Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısı"na yeni məzmunda 49-cu hissə əlavə edilmişdir.